**UOT 902.**

**Ədilova Pəri Mübariz qızı**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**magistrant**
**Email: peri.abdulmanafova@gmail.com**

# TƏPƏBAŞI ABİDƏSİNİN MÜHAFİZƏSİ YOLLARI

**Xülasə:** Müxtəlif dövrün tarixi daşıyıcılarından hesab edilən arxeoloji abidələrimizin mühafizəsi mühüm əhəmiyyət kəsb edir. Şəkidə Fazıl kəndinin Təpəbaşı qəbir abidələri də bu abidələr siyahısına daxildir. Təpəbaşı qəbir abidələrinin mühafizə edilməsi üçün muzeyləşdirilmə işləri aparılmışdır. AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun Şəki Arxeologiya və Folklor qrupunun rəhbəri mərhum arxeoloq Nəsib Muxtarov və arxeoloq İntizar Bədəlova tərəfindən Şəki şəhər İcra Hakimiyyətinin dəstəyi ilə 2006-cı ildə “Əbədi Sükut Dünyası – Labirint” yaradılıb. Muzeyin əsas xüsusiyyəti Təpəbaşı abidəsindən tədqiqatlar zamanı aşkar olunan qəbirlərin öz yerində saxlanılması və orada sərgilənməsidir.

**Açar sözlər:** Təpəbaşı abidəsi, Fazıl kəndi, Şəki, arxeoloji abidə, nekropol

Arxeoloji abidələr və bir çox saylı maddi mədəniyyət qalıqları Azərbaycanın uzun keçmişə dayanan bir tarixi olduğunun əsas sübutlarından biridir. Müxtəlif dövrlərdə Azərbaycan ərazisində aparılan arxeolji qazıntılar nəticəsində bir çox dəyərli arxeoloji abidələr aşkara çıxarılmışdır. Müasir dövrdə bu arxeoloji abidələrin mühafizəsində müxtəlif cür problemlər meydana gəlir. Belə abidələrdən biri də Şəki rayonu, Fazıl kəndi ərazisində yerləşən Təpəbaşı arxeoloji abidəsi hesab edilir. Təpəbaşı abidəsinin mühafizəsi üçün ilkin yollar düşünülmüş və daha sonra buradan tapılan materialların qorunması üçün muzeyləşdirmə işləri aparılmışdır.

İlk dəfə Fazıl kəndinin Təpəbaşı nekropolunda uşağın dəfn edildiyi küp qəbir və bütöv bir heyvanın dəfn edildiyi qəbir aşkar edilmişdir. Təpəbaşı abidəsində əsas dəfnlər küp və torpaq qəbirlərdə icra olunurdu. Ölü sağ və ya sol böyrü üstə olmaqla, qismən bükülü vəziyyətdə dəfn olunurdu. Bu qəbir abidələrinin qorunması üçün muzeyləşdirilmə işləri aparılmışdır. Bu tapılan abidələrdən əsas 4 qəbir daha çox araşdırılmışdır.

***1 saylı qəbir.*** Dərinliyi 210 sm, uzunluğu 180 sm, eni isə 120 sm olan bu qəbir torpaq qəbirdir. Bu qəbir nekropolun mərkəzində yerləşir. Uşaq qəbridir. Uşağın boyun, baş və döş qəfəs hissəsində muncuqlar aşkar olunmuşdur. Dəfn küpünün şimal-şərq tərəfində iri və xırdabuynuzlu heyvanların sümükləri aşkar olunmuşdur. Bu, Fazıl Təpəbaşı ərazisində tapılan 2-ci qəbirdir.

***2 saylı qəbir.*** Bu qəbir 1 saylı qəbir abidəsindən də biraz aralı olmuşdur. Ölçüsü 210 x 200 sm, dərinliyi 200 sm-dir. Qəbirdə bütöv halda öküz skeleti və onun ayaq tərəfində isə qoyun və qoç sümükləri tapılmışdır. Skelet qəbrin şimal tərəfinə bükülü formada qoyulmuşdur.

***3 saylı qəbir.*** Bu qəbir Təpəbaşı nekropuluna 2 saylı qəbir abidəsindən 2 m uzaqlıqda yerləşir. Qəbrin uzunluğu və eni 250×180, dərinliyi isə 220 sm-dir. Qazıntılar nəticəsində müxtəlif formalı qab parçaları və kömür qalıqları tapılmışdır.



***4 saylı qəbir.*** Bu qəbir abidəsi 1 saylı qəbir abidəsindən 1 m şimal-qərb ərazisində tapılmışdır. Qəbirdə uşaq skeletinin qalıqları tapılmış, lakin bu cəsəd qəbrə yarımçıq formada, baş, sinə hissəsi və çiyin sümükləri ilə qoyulmuşdur [1. 114-115].

Bu ərazidə AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun Şəki Arxeologiya və Folklor qrupunun rəhbəri mərhum arxeoloq Nəsib Muxtarov və arxeoloq İntizar Bədəlova tərəfindən Şəki şəhər İcra Hakimiyyətinin dəstəyi ilə 2006-cı ildə "Əbədi Sükut Dünyası – Labirint" yaradılıb. Həm Təpəbaşı abidəsində, həm də yaxınlıqda olan Yoncalı, Böyük Düz Sayvalı-Söyüdlü nekropollarında da torpaq qəbirlər yuxarıda qeyd edilən çərçivədə müxtəlif dövrləri əhatə edir. Muzeyin əsas xüsusiyyəti Təpəbaşı abidəsindən tədqiqatlar zamanı aşkar olunan qəbirlərin öz yerində saxlanılması və orada sərgilənməsidir [3.132].



2003-2004-cü illərdə bu qəbir eksponatların ziyarətinə mindən artıq insan ziyarət etdikdən sonra yerli bələdiyyənin hesabına qəbirlərin yağışdan və qardan mühafizə olunması üçün üstü örtülmüşdür. Çox təəssüf ki, bu eksperiment

Təpəbaşından karxana kimi istifadə edilməsini minimuma endirsə də, tam dayandıra bilmədi. Dağıdıcılıq missiyasına kəndin mal-qarası da qoşulmuşdu. Muzeyin əsas səciyyəvi xüsusiyyəti Təpəbaşı abidəsinin qəbir formalarının yerindəcə saxlanılaraq abidənin bütün təfərrüatları ilə ziyarətçilərə əyani olaraq təqdim olunmasıdır. Muzeyin labirint olaraq adlandırılması onun daxili planının labirinti xatırlatmasından irəli gəlir [8].

Təpəbaşı abidəsinin muzeyləşdirilməsinə baxmayaraq, bu arxeoloji abidə diqqətdən kənar qalmışdır. İlkin problemlər də burada muzeyin dövlət statusu ala bilməməsidir. Muzeyin yaradılmasının üstündən uzun illər keçsə də bu muzey hələ də dövlət statusu almamışdır. Nəsib Muxtarovun öz maddi hesabı ilə yaratdığı bu muzeyə dövlət tərəfindən maddi dəstəyin göstərilməməsi abidələrə lazımi mühafizənin təmin edilə bilməməsinə səbəb olur. Həmçinin Təpəbaşı abidələri ilə tanış olmaq üçün muzeyə getdiyimizdə bunu görə bilərik. Belə ki, gözümüzə ilk çarpan muzeyin ətrafı dəmir barmaqlıqlarla əhatələnmiş olmasıdır. Lakin bu proses abidə aşkarlandıqdan və muzey yaradıldıqdan illər sonra, mal qara və insanlar tərəfindən muzeyə müəyyən ölçüdə zərər vurulduqdan sonra həyata keçirilmişdir.

Bu abidələrin qorunması istiqamətində bir sıra nümayiş etdirmə, ekspozisiya qüsurlarına da rast gəlinir. Məsələn, ekspozisiyada işıq kompozisiyası və havalandırma sistemi qeyri-peşəkar şəkildə həll edilmişdir. Təpəbaşı abidəsinin ziyarətçilər üçün hərtərəfli nümayişi məqsədilə işıqlandırma sistemi düzgün konstruksiya edilməmişdir. İşıqlandırma sistemində müasir texnologiyalardan istifadə edilməmiş və işıqlandırmalar abidələr üzərində düzgün qurulmamışdır.

Maddi cəhətdən muzeyin dəstək ala bilməməsi muzey işçilərinin və hətta muzey mühafizəçisinin belə olmamasına səbəb olmuşdur. Muzeyin maliyyəsi sadəcə İntizar Bədəlovanın şəxsi hesabı və müəyyən qədəri isə ziyarət edən turistlər sayəsində formalaşır.

Müasir dövrümüzdə yeni texnologiyaların istifadə edildiyi muzeylərə diqqət və ziyarət daha çoxdur. Lakin turistlərin buraya kütləvi şəkildə cəlbi üçün muzeyin maddi dəstəyə ehtiyac vardır. Muzey olmağına baxmayaraq burada bütün işlərə buranın direktoru İntizar Bədəlova baxır. Muzeyə aid bukletlər və ya buroşüralar isə ümumiyyətlə yoxdur. Belə qədim dövrü əhatə edən abidənin təbliğinə daha çox diqqət ayrılmalıdır.

## Ədəbiyyat siyahısı:

1. Azərbaycan arxeoloji tədqiqatları - 2011, Bakı, "Xəzər Univeristeti" nəşriyyatı, 2012, 402 səh.
2. Azərbaycan arxeoloji tədqiqatları - 2013-2014, Bakı, "Xəzər Univeristeti" nəşriyyatı, 2015, 420 səh.
3. Alməmmədov. X. Təpəbaşı nekropolu. Azərbaycan arxeologiyası. Cild VIII, №1-4, Bakı: 2006.
4. Muxtarov. N., Bədəlova. İ. Şəki bölgəsində aparılan arxeoloji kəşfiyyat işlərinin (Fazıl kəndi, 10 iyun-03 iyul 2008) qısa hesabatı. Şəki: 2008.

5. Y.Eyvazova. Tarix və Mədəniyyət abidələrinin mühafizəsi. Bakı. 2021. 611 səh.
6. Azərbaycan Arxeologiyası. Altı cilddə, VI cild. Bakı: "Şərq-Qərb", 2008- 632 s.
7. Андреев В.М. Интерпретативность археологического наследия и его музейная презентация // Фундаментальные исследования. Вып. N11. 2014
8. https://vzglyad.az/news/175622/news.html

**Adilova Pari Mubariz**

# PROTECTION ROADS OF TEPEBASHI MONUMENT

**Summary:** The protection of our archaeological monuments, which are considered to be carriers of the history of different eras, is of great importance. These monuments are included in the list of Tepebashı grave monuments of Fazıl village in Sheki. For the preservation of Tepebashı grave monuments, museumization works were carried out. The "World of Eternal Silence-Labyrinth" was established in 2006 by the late archaeologist Nasib Mukhtarov, head of the Sheki Archeology and Folklore Group of ANAS Institute of Archeology and Ethnography, and archaeologist Intizar Badalova with the support of Sheki City Executive Power. To be kept in place and exhibited there.

**Keywords:** Tepebashı monument, Fazıl village, Sheki, archaeological monument, necropolis.

**Адилова Пари Мубариз**

## МЕТОДЫ ЗАЩИТЫ ПАМЯТНИКА ТЕПЕБАШИ

**Резюме:** Охрана наших археологических памятников, считающихся носителями истории разных эпох имеет важное значение. Могильные памятники Тепебаши в селе Фазыл Шекинского района включены в список охраняемых аохеологических памятников. Для сохранения могильных памятников Тепебаши были проведены работы по музеефикации. «Мир вечной тишины-лабиринта» был создан в 2006 году покойным археологом Насибом Мухтаровым, заведующим Шекинской группой археологии и фольклора Института археологии и этнографии НАНА, и археологом Интизар Бадаловой при поддержке Исполнительной власти города Шеки. Главной особенностью музея является то, что могилы, обнаруженные в ходе исследования памятника Тепебаши, хранятся на своих местах и экспонируются там.

**Ключевые слова:** памятник Тепебаши, село Фазыл, Шеки, археологический памятник, некрополь

**Məqalənin redaksiyaya daxil olma tarixi: 11.06.2024**